# ÜSTÜN OLAN İNSANLIQ

## Məlahət Soltanqızının "Xəyanətin bədəli" poeması haqqında

*(Əvvəli ötən saylarımızda)*

Şübhəsiz, cəmiyyəti qanunlar idarə edir. Qanunlara isə nəzarət icra orqanlarının işidir. Hər hansı bir əməl qanundan kənardırsa, həmin əməlin sahibi qanun qarşısında cavab verməlidir.

Doğrudur, hər hansı bir şəxsin əməlində, hərəkətində cəmiyyətin qəbul edə bilmədiyi bir əməl təzahürü varsa, onda həmin şəxs ictimai qınaq obyektinə çevrilir. Onu da demək lazımdır ki, heç də ictimai qınaq qanunlardan az təsir gücündə deyil. İnsanlar çox vaxt ictimai qınağın gətirdiyi mənəvi iztirablardan ehtiyatlanır. Oğurluq edən, cinayət törədən bir şəxs qanun qarşısında cavab verməli olarkən, çox vaxt üzünü cəmiyyətdən gizləməyə çalışır. Demək, insanın daxili aləmində özünə nəzarət nə qədər zəifləyirsə, bir o qədər qanundan kənar hərəkətə yol açılır. İctimai nəzarət isə hətta qanunu pozan şəxsin daxili-mənəvi mühitindən boy göstərir və onun iş dünyasına əməlinin fəsadları haqqında xəbərdarlıq siqnalları göndərir. Yəni səndən cəmiyyət ikrah edəcək, cəmiyyət səni pis, hətta salam verməyə layiq olmayan bir şəxs kimi tanıyacaq. Amma qanunu pozmaqla insan özünü ictimai qınaq qarşısında da qoymalı olur.

Məlahət Soltanqızının "Xəyanətin bədəli" poemasının qəhrəmanı öz əməlində cəmiyyətin qəbul edə bilməyəcəyi mənzərə görür. Əslində onu cinayətə sürükləyən də ictimai qınaq qarşısında dözümsüz olacağı qorxusudur. Aydın məsələdir ki, o, xəyanətlə qarşılaşıb. Sevdiyi oğlanın şirin vədləri onun məsuliyyət hissini əlindən alıb. Axı insan həm də inamla yaşayır. Şahnabatın ilk baxışdan əməlində elə bir qorxulu cəhət yoxdur. Axı o, sevdiyi oğlanla ünsiyyətə girib. Bizdə tarixi-ənənəvi bir qayda var; istər oğlan, istərsə də qız, evlənmək, ailə qurmaq həddinə çatanda böyüklərin razılığını almalıdır. Böyüklərin xeyir-duası ilə, onların xoş diləkləri ilə bu addımı atmalıdır. Onsuz da biz bilirik ki, Şahnabat ailədən təcrid olunmuş bir vəziyyətdə idi. O, köməksiz, yardımsız olaraq şəhərə gəlib. Görmədiyi, tanımadığı bir mühitə düşüb. İş tapıb, ev kirayələyib, bununla da xəstə atasına kömək edə biləcəyini düşünüb.

İnsan nə qədər daxilən humanist, ataya, anaya sədaqətli olsa belə, yaşının elə bir çağına gəlir ki, o, özünün müstəqil həyatı haqqında düşünməli olur. Orqanizmin mənəvi tələbatı, cinsəl istəklər hər hansı bir gənci idarə etməyə başlayır. Bunun üçün gərək gəncin yüksək iradəsi, ağılla idarə olunan mənəviyyat, məsuliyyət hissini qarşısında görsün, hər hansı bir vəziyyətdə düzgün çıxış yolu tapa bilsin. Çox güman ki, Şahnabat təkləndiyi üçün, atasından, anasından uzaq düşdüyü üçün müraciət edəcəyi, kömək umacağı bir kimsəsi yoxdur. Ancaq o belə bir sığınacaq yerini görür. Bu sevdiyi oğlanın sevgi dünyasıdır, məhəbbət aləmidir. Məhəbbət isə özünün cazibədarlığı ilə hər kəsi cəzb edir. Özünə doğru çəkir. Bax bu zaman gərək ağıl, iradə şəxsi idarə eləsin.

Yəqin ki, Şahnabat könül verdiyi gənclə yaşayacağı həyatın harmoniyasını, mühitini bəri başdan xəyalında təsəvvür edir. Bunu təkrar-təkrar xəyalında yaşatmaqla sanki reallığa çevirir. Ona elə gəlir ki, o artıq həqiqi mənada arzuladığı bir həyata qədəm qoyub. Sevdiyi oğlanın gücü, dəyanəti ilə gələcək həyatının harmoniyasını təmin edəcək və xoşbəxt bir güzəran başladacaq. Bəlkə də o xəyalında necə ana olacağını da düşünüb. Amma çox vaxt arzularla, istəklərlə real həyatın gətirdikləri üst-üstə düşmür.

Həyat proqramlarla idarə olunmur. Filosoflar deyirlər ki, axan suya bir dəfə baxmaq olar. Vaxt da, zaman da belədir ki, o öz sürətindən qalmır, keçib gedir. Şahnabat isə könül verdiyi gəncin onun xoşbəxt edəcəyinə artıq tamam inanıb və nəticəsi acı təəssüratdır. Biz bilirik ki, o artıq təkcə qınaq qarşısında deyil, həm də qanun qarşısında cavab verəcək vəziyyətdədir. Biz Şahnabatın cinayətkar obrazının qanunla qarşılaşacağı səhnəni görmürük. Amma o, cinayəti ilə ictimai qınaqdan xilas olur. Bəlkə də içində bir təskinlik hissi də var ki, əməlindən qanun da xəbərsizdir. Onu həbs etməyiblər, övlad qatili olduğunu da kimsə bilmir. Amma çox dəhşətli bir məhkəmənin qarşısında ağır cinayət sahibi kimi cavab verməlidir. Bu, vicdan məhkəməsidir. Onu içəridən, daxildən yandırıb-yaxır. Əməlinin qəbuledilməzliyini hər dəqiqə onun yaddaşına gətirir.

Məlahət Soltanqızı əsərlərinin sonunda ümumiləşdirici notlarla həyata münasibətini bildirir. Bu əsərin də sonuna yaxınlaşdıqca, Şahnabatdan çox dünya, cəmiyyət, həyat haqqındamülahizələrini oxucularla bölüşür. O hiss edir ki, artıq hekayət başa çatıb. Sanki əsəri yazdıqca Şahnabatı haradasa yaxınlıqda görür, onu gözaltı olaraq müşahidə edir. Şahnabat özünü necə aparır, necə davranır, bu, müəllifin nəzərindən yayınmır. Bu yerdə onun Şahnabatı gördüyü mənzərəni ifadə edən sətirlər çox böyük mətləblərdən xəbər verir:

Sözü uzatmağın nə mənası var...
Nə dünya donunu dəyişən deyil,
Nə zaman geriyə qayıdan deyil
Peşman deyildi bizim Şahnabat
Qürur varlığını alıb ağzına
Gözləri zillənib mavi bir sonsuzluğa...

Buyurun, qoy hər kəs bu mənəzərəyə diqqətlə baxsın. Çünki misralar canlılığı ilə Şahnabatı bizim də gözlərimizin önünə gətirir. Biz onu zahirən peşman olmamış kimi görürük. Müəllif də onun öz əməlindən peşman olmadığını israrla xatırladır. Sanki Şahnabat qürurludur, ictimai qınaqdan xilas ola bildiyinin qürurunu yaşayır. Amma əslində belə deyil. Müəllif bircə misra ilə əsil həqiqəti bütün çılpaqlığı ilə diqqətə çəkir: "Gözləri zillənib mavi bir sonsuzluğa". Həmin sonsuzluqda, üfüqün arxa tərəfində hansı ümid var, o sonsuzluqdan Şahnabat nə umur, nə gözləyir - aydın məsələdir ki, həmin sonsuzluqdan hansısa bir ümid Şahnabatın köməyinə çatan deyil. Onun gözlərini sonsuzluqdan yığacaq bir qüvvə yoxdur.

İş elə gətirir ki, Şahnabat - əsərdən aldığımız təəssürat əsasında bildirə bilərik ki - ailə də qura bilmir. O, daha dünyaya uşaq gətirmək imkanından da məhrumdur. Çünki artıq həyatın cazibəsi onun gözlərində ölüb, sanki həyat eşqi sönüb.

Müəllif bu yerdə çox ustalıqla insan və dünya qarşılaşması aparır. O, insanlara sanki xəbərdarlıq edir ki, həyatın harmoniyasını təmin edən maddi imkan deyil. Dünya hər kəs üçün bir dəfə verilir. Gərək bu dünyanı, bu dünyadakı həyatı elə yaşayasan ki, ömrünün puç olduğunu düşünməyəsən. Ancaq neyləyəsən ki, dünyada həmişə xəyanətkarlar tapılır. Sözünə əməl etməyən, ona inananların inamını qıran kəslər var və yəqin ki, gələcəkdə də olacaq. Ona görə də hər kəs lap son ana qədər inansa belə, öz əməlini həyatın pozulmaz qanunları ilə məhək daşına çəkməlidir. Yəni nəyin düz, nəyin səhv olduğuna çox inanmalıdır. Əməlinin hər hansı fəsadla nəticələnəcəyini yaddan çıxarmamalıdır.

Şahnabat da harda olsa da, nə işdə olsa da, evə dönərkən öz tənhalığı ilə təzədən qarşılaşır. Kimliyi haqqında əməlinin bəhrəsinin yaşadığı həyat haqqında düşünməli olur.

Axı Şahnabat körpəsini öldürməyə bilərdi. Hər halda həmin körpə bir insanın övladı idi. Onun adı da məlum idi, ünvanı da məlum idi. O körpəni böyüdərdisə, bəlkə körpənin atası da öz əməlindən peşman olar, övladını görmək üçün Şahnabatın yanına qayıdardı. Təbii ki, bunlar acılar. Ağrılar kimi yadda qalır. Unudulmayan həqiqətlər kimi, ancaq acı həqiqətlər kimi Şahnabatla yanaşı, ömrü boyu onunla birgə addımlayır. Müəllif bu məqamları təsirli həyat səhnəsinin davamı kimi təqdim edir:

Bəni Adəm! Budur dünya,
Sərvətinə tapındığın,
Var qüvvənlə sarıldığın, fani dünya...
İnandığın, güvəndiyin, heç nə olmamış kimi
Bir gün yolun dəyişər
Ömrü fəda elədiyin səni başqasına dəyişər,
Şahnabat döndü evə
Həyat onun gözündə
Bir cəhənnəm əzabı
Xəyanətin bədəli yaman ağır olurmuş
Xəyanətə uğrayan yaşamaqdan doyurmuş
Sinəsində aramsız çırpınsa da ürəyi
Bu həyatda yox idi onun bircə gərəyi.

Şahnabat özü öz əməli ilə həyatının çırağını söndürüb. Onun üçün yaşamaq stimulu verən demək olar ki, heç nə yoxdur. Buradan belə çıxır ki, hər bir insan üçün övlad dünyaya gətirmək təkcə nəsil artırmaq məsələsi deyil. Bu həm də insana yaşamaq stimulu verən amildir. İnsan məhz yaşamaq hissinin nə qədər ali olduğunu övladı üçün çalışmaları ilə dərk edir. Övladının varlığından ilham alaraq işləyir, çalışır, bir sözlə, həyat uğrunda mübarizə aparır. Bəli, Şahnabat belə bir mübarizədən, insanın həyatına məna gətirən varlıqdan məhrumdur. Onun həyatdan küskünlüyü, ruhundan əzginliyi evinin soyuqluğu, həyatının tənhalığı ilə müəyyənləşir. Sanki özü də başa düşür ki, həyat onun üçün çox mənasızdır, gərəksizdir və hətta istəsə də bunu düzəltmək imkanından məhrumdur. Şahnabat bunu da hiss edir ki, həyat təkcə onun taleyindən asılı deyil. Onun taleyi yaxşı olsa da, pis olsa da, həyat davam edir. Yaşamaq özünün gözəlliyini hər gələn yazda təzədən xatırladır.

Ağaclar çiçək açır, sonra bu çiçəklər bara, bəhərə çevrilir. İnsan isə nə qədər bu çiçək açan, bar-bəhər gətirən ağaca bənzəyirsə, bir o qədər həyatını mənalı görür. Amma insanın faciəsi o zaman dözülməz olur ki, onun çiçək açmaq imkanı yoxdur. Onun bar-bəhər gətirmək imkanı yoxdur. Bunlardan məhrumdur. Ona görə də insan nə qədər acı durumda olduğunu anlasa da, artıq vaxtın sürət qatarı getmişdir. Əlbəttə müəllifin dediyi kimi həyat öz axarındadır. Bu axarı kimsə tutub saxlaya bilməz. Bu axarı kimsənin dayandırmaq imkanı yoxdur. Əgər dayandırmaq imkanı olsaydı, onda elə həyatı da geri qaytarmaq mümkün olardı. Bəlkə insan öz səhvlərini də düzəldə bilərdi, təəssüf ki, bu mümkünsüzdür. Şahnabatın faciəsinin böyüklüyü, ağrılığı, acılığı səhvini düzəltmək imkanından məhrum olması ilə bağlıdır.

Əsərin sonluğu son dərəcə insan dərdlərinin ağrılığını göz önünə gətirəcək bir təsvirlə bitir:

Həyatsa davam edir.
İllər ötdü yaş üstə
Neçə-neçə yaş gəldi.
Yoruldu yaşamaqdan
Gözlərində, üzündə yox gülüşdən əlamət
Ətrafa sıçratmadı qəmini, kədərini
Qəlbinə məhkum etdi o bir ömür dərdini
Nə sual var, nə cavab
Olan bitən nə varsa gözlərimin gördüyü
Danışdım sətir-sətir
Bu görünən tərəfi
Fəqət insan - bir aləm
Varaqlara sığarmı onun çəkdiyi ələm,
Varaqlara sığarmı onun çəkdiyi ahlar,
Varaqlara sığarmı yuxusuz gecələrdə
Yastığını isladan, gözündən axan yaşlar,
Varaqlara sığarmı gözlərindən oxunan,
Bütün ömrü boyunca vicdanını ağrıdan
Günahlar, imtahanlar, sağalmayan yaralar
Burda nöqtə qoyacam,
Fəqət bitməz acılar,
Nə qədər ki, insan var!

Zənnimcə, heç bir şərhə ehtiyac yoxdur. Müəllif təkcə əsəri bitirmir. Həm də qəhrəmanın taleyi ilə bağlı ən acı xəbərlərlə oxucularına məlumat verir. Təkcə oxucularına yox, gənclərə də Şahnabatın həyatından nəticə çıxarmağı, öz əməllərində, hərəkətlərində məsuliyyət hissini itirməməyi də təlqin edir.

Zənnimcə əsərin sonluğunda mənzərəni dəqiq göstərən misraları təkrar-təkrar oxumağa dəyər.

M.Soltanqızı bu əsəri 2018-2021-ci illəri əhatə edən vaxtda yazıb. Hətta müəllif əsərin motivini uzun müddət yaşayıb. Bəlkə yaşayış yerini dəyişdikcə, ayrı-ayrı səfərlərdə olarkən belə öz qəhrəmanının taleyindən kənarda qalmayıb. Elə bil ki, bir neçə ilə Şahnabatı həm də cəmiyyətdə axtarıb. Şahnabatların taleyinin sonluğunu görmək istəyib. Bütün hallarda əsərin sonunda göstərilən məkanlar da - Bakı - Gəncə - Göygöl şəhərlərinin xatırlanması da bu mənada təsadüfi deyil.

Bütün hallarda əsər çox təsirli və həm də ibrətlidir.

***28.03.2023***